YAQUB VƏLIYEV
BDU. BM. Kafedrasının dosenti
ZAUR MUSIATAYEV
BDU. İslamşünaslıq ETM-in elmi işçisi

# MISIR-AZƏRBAYCAN ƏLAQƏLƏRI XXI ƏSRDƏ

Misir ilə Azərbaycan arasında bir sıra oxşar cəhətlərin mövcudluğu qloballaşan dünyada xalqımızın bir-birinə daha da yaxınlaşmasında mühüm amillərdən biri kimi çıxış edə bilər. Buna misal olaraq, dillərimizdə çoxsaylı eyni sözlərdən istifadə edilməsini və ya mətbəxlərimizdə bir sıra eyni xörəklərin hazırlanmasını, insanlarınızın davranış və düşüncə tərzində də eyniliklərin müşahidə edilməsini göstərə bilərik. Bütün bu oxşarlıqlarla yanaşı, Misir-Azərbaycan əlaqələrinin tarixini tədqiq etdikdə, iki ölkə arasında bağlılğın lap qədim dövrlərdən qaynaqlandığını da görürük. Ayrı –ayrı tədqiqatçılar, məsələn ingilis alimi Flinders Petri kimi, Bakı şəhərinin mənşəyini eramızdan əvvəl III əsrə aid Misir əfsanəsi olan "Ölülər kitabı"nda adı çəkilən Bakhau ilə əlaqələndirir [3] 1923-cü ildə Bostonda Amerikalı professor Reginaid Aubrey Fessenden "The Deluged Civilization of the Caucasus Isthmius" (Qafqaz Bərzəxinin Çökmüş Mədəniyyəti) adlı yayınlanmış əsər hələ Qədim Misirdə Qafqaz regionu haqqında biliyin, bu xalqlar arasında qarşılıqı fəaliyyətin mövcud olduğunu ərsəyə gətirdi. Kitab haqqında türk tədqiqatçısı Aydın Osman Erkan tərəfindən yazılmış essey əsasında qədim Misirdə Azərbaycan yer adlarına rast gəlinməsinin mümkünlüyü ideyası ortaya çıxır.

"Çox maraqlıdır ki, qədim misirlilərin "Ölülər Kitabı"nın 147 və 149. bölmələrini incələdikdə, çox detallı olaraq Qafqaz bölgəsinin bir rəhbəri olduğunu görürük. Qəbilələrin, bölgələrin adları eynilə verilməkdədir. Örnəyin xalq olaraq Kimmerlər, | Sereslər; yer olaraq Tiber ve Keft kimi".

"... Ölülər Kitabında günəş bir dənizin üzərindən, Bakhuya doğar (Bakı) və Ta Manuda (Taman) bir digər dənizin üzərində batar. Lakin Misir coğrafiyasında belə şərq və qərb dənizləri yoxdur. Kitabda bəhs edilən yer bəllidir ki, Qafqazdır" [4]. Həmçinin, qeyd edilir ki, antik coğrafiyaşünaslar misirlilərlə Cənubi Qafqaz vadiləri xalqının eyni irqdən gəldiklərini bilirdilər. Bizım eradan əvvəl 450-ci ildə Herodot belə yazır: (1) "Heç şübhə yoxdur ki, Kolhis xalqı ilə qədim misirlilər eyni irqdəndirlər. "Misirin qədim adı Aetia idi. Qafqazda eyni adı daşıyan bir bölgə var idi. Sirisk isə Nil çayının qədim adıdır. Qafqazdakı çayın adı isə Cyrusdur (Kür)." "Misir əfsanələrinə görə dünyada ilk ölkə, Şərqdən günəşin Bakı üzərinə doğduğu dənizdən, Ta-Manu üzərinə batdığı dəniz olaraq anladır ki, öncədən də dediyimiz kimi bu ölkə Qafqaz bərzəxidir." Eyni zamanda "Qədim Misirin Ölülər Kitabında Qafqaz, isim zikr edərək "Üzərində tufandan sığmanlan saxlayan çox böyük bir qayıq" olaraq xatırlanır (Bölmə 99)" [4] Həmçinin, başqa bir tədqiqatçıya görə Qədim türk tayfası skiflərlə bağlı aydın olmuşdur ki, Misir əhalisinin bir hissəsini təşkil edən koptların dilində Kibt adlandırılırdılar ki, bu da kitlərdir, yəni Kitiyanın sakinləri və ya Skiflər (=Skitiya) [5]. Tədqiqatlar nəticəsində əldə edilən məlumatlar əsasında ölkələrimiz arasında münasibətlərin qədim dövrdən nə dərəcədə mühüm olduğu aydın olur. Misir-Azərbaycan əlaqələri müasir müstəvidə qarşılqlı əməkdaşlığa əsaslanır. Müxtəlif sahələrdə: siyasi, iqtisadi, mədəni sahələrdə dövlət səviyyəsində bir sıra səfərlər, görüşlər həyata keçirilir, razılıqlar əldə olunur. Onların tədqiq edilməsi əməkdaşlığın gələcək perspektivlərini öyrənmnək baxımından faydalıdır. Ümummilli lider Cənab Heydər Əliyev 4 sentyabr 1994-cü il Qahirədə "Dünya əhalisi və inkişaf" mövzusunda beynəlxalq konfransda iştirak etmək üçün Misir Ərəb Respubli-

kasına yola düşərkən demişdir: ki, Misirlə Azərbaycan arasında əlaqələrin tarixi çox böyükdür. Bizim xalqımız uzun əsrlər boyu bir-biri ilə əlaqə saxlayıb, bir-birinə kömək ediblər. Bizim milli, dini, tarixi ənənələrimizdə çox oxşarlıq, eynilik vardır. Dövlət başçısı Prezident İlham Əliyevin bu istiqamətdə apardığı siyasi kurs ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etməsini təmin edir. 2007-ci il may ayında Prezident İlham Əliyev Misir Ərəb Respublikasına rəsmi səfər etmişdir ki, bu səfər hər iki ölkə həyatında çox mühüm hadisə olmuşdur. Danışıqların nəticəsi olaraq Misir və Azərbaycan arasında növbəti sənədlər imzalanmışdır: İdman sahəsində əməkdaşiığa dair saziş, Ədliyyə Nazirlikləri arasında əməkdaşlığa dair saziş, Kənd Təsərrüfatı Nazirlikləri arasında əməkdaşlığa dair saziş, beynəlxalq pul köçürmələri üzrə poçt təşkilatları arasında saziş, "AzərTac" ilə "Yaxın Şərq" İnformasiya Agentliyinin əməkdaşlığına dair saziş, turizm sahəsində əməkdaşlıq üzrə qarşılıqlı anlaşmaya dair Memorandum, Daxili İşlər Nazirlikləri arasında əməkdaşlıq üzrə qarşılıqlı anlaşmaya dair Memorandum, Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Misirin mineral ehtiyatlar strukturu arasında texniki əməkdaşlığa dair Protokol, Bakı İcra hakimiyyəti ilə Qalyubiya şəhəri administrasiyası arasında əməkdaşlığa dair Memorandum, M.F.Axundov adına Milli Kitabxana ilə İsgəndəriyyə kitabxanası arasında qarşılıqlı anlaşmaya dair Memorandum, Azərbaycan Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə Misir İnformasiya-Kommunikasiya Texnologiyaları Nazirliyi arasında əməkdaşlıq üzrə qarşılıqlı anlaşmaya dair Memorandum və hava nəqliyyatına dair Əlavə Protokol [6].

Ölkəmiz üçün həlli ən həyati vacib olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə dair MƏR-in mövqeyi də diqqətəlayiqdir. Misir Prezdenti Hüsni Mübarək onun ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini və münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində, sərhədlərin toxunulmazlığı prinsipi əsasında sülh yolu ilə ədalətli həllinə tərəfdar olduğunu bəyan etmişdir.

Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın da yüksək səviyyədə olması qeyd edilməlidir. Deputatlarımız BMT, İslam Konfransı Təşkilatı, Parlamentlərarası İttifaq kimi beynəlxalq qurumlarda fəal əməkdaşlıq edirlər. Elm, təhsil və mədəniyyət sahəsində mövcud əlaqələrdən bəhs edərkən aşağıdakıları qeyd etmək olar. Belə ki, Prezident İlham Əliyevin yuxarda qeyd edilən səfəri zamanı Al-Azhar Al-Şərifin Rektoru Şeyx Muhamməd Tantavi Azərbaycan Prezidentinin rəsmi səfərinin elm, təhsil sahələrində də qarşılqlı əməkdaşlığın inkişafına təkan verəcəyini söylədi. Habelə, mədəniyyət sahəsində münasibətlərin yüksələn xətt üzrə irəlilədiyini göstərən digər bir fakt da Qahirə Opera və Balet Teatrında görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirovun "Min bir gecə" baletinin ilk tamaşasının təşkil edilməsidir. Misirdə səfərdə olan Mədəniyyət və Turizm Naziri cənab Əbülfəs Qarayev Misirin xarici işlər naziri Əhməd Əbu Əl Qeyt, beynəlxalq əməkdaşlıq naziri, iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Misir müştərək komissiyasının həmsədri xanım Faizə Əbu Ən-Nəcə, mədəniyyət naziri Faruq Hüsnü ilə görüşmüşdür. [7].Görüşlərdə mədəniyyət və turizm sahəsində Azərbaycan-Misir arasında əməkdaşlığın perspektivləri müzakirə edilmiş, Qahirə Opera və Balet Teatrında Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasının azərbaycanlı və misirli aktyorların birgə iştirakı ilə səhnələşdirilməsinə dair razılıq əldə olunmuşdur. Misir Ərəb Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri cənab Yusif Ahmed El Şarqavi öz növbəsində Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin may 2007-ci il tarixdə Misirə səfərini qarşılıqlı münasibətlərin inkişafında stimul olduğunu vurğulamışdır. Azərbaycandan Misirə iqtisadiyyat, kənd təsərrüfatı, diplomatiyanı təmsil edən qruplar səfərlər edir. Azərbaycana Misir ixracının əsasını informasiya texnologiyaları və əczaçılıq sənayenin məhsulları təşkil edir. Qeyd olunduğu kimi iqtisadi sahədə əlaqələrin genişləndirilməsi üçün böyük potensial var və bundan səmərəli istifadə edilməsi hər iki ölkə üçün zəruri və faydalıdır. Həmçinin, Ümumdünya Ticarət Təşkilatına üzv dövləti

olan Misir Ərəb Respublikası həmin təşkilata üzv qəbul olmaq istiqamətində proseslərə qoşulan Azərbaycan Respublikasına dəstək ola bilər.

Ümumiyyətlə, qloballaşan dünyanın digər üzvləri ilə birgə əməkdaşlıq, yaxın tərəfdaşlıq müasir dövrün tələblərindəndir. Bu baxımdan əməkdaşlıq, Misirlə bir sıra eyni xüsusiyyətləri paylaşan Azərbaycanla daha effektli olar.

Azərbaycan da qədim ölkə olaraq bir sıra mədəni dəyərlərə varis çıxmışdır. Bu, ən qədim milli dəyərlərdən İslam və müasir dəyərlərədək hamısını özündə ehtiva edən bizim mənaviyyatımızdır. Azərbaycanın geosiyasi mövqeyi bütün Avrasiya üçün Misirin Afrika və Asiya üçün vacib olduğu qədər çox mühümdür ki, bu da müxtəlif insanların diqqətini cəlb edir. Bu gün Azərbaycan onunla qardaşlıq və dostluq əlaqələrini genişləndirmək və möhkəmləndirmək üçün əməkdaşlıq etmək istəyən kəslərə öz qapılarını sülhpərvər tərzdə açmışdır. Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva "Azərbaycan: Sivilizasiyalararası dialoqun keçmişi və bu günü" mövzusunda beynəlxalq konfransın açılışındakı çıxışında demişdir ki, elm, dil, təhsil, incəsənət, hətta iqtisadi nailiyyətlər də mədəniyyətin tərkib hissəsidir. Öz mədəniyyətinə, öz tarixinə, öz ənənələrinə hörmətlə yanaşan xalq gərək eyni şəkildə fərqli mədəniyyətlərə də, fərqli tarixə də hörmətlə yanaşsın. Mədəni nailiyyətlərin mübadiləsində Bakıdakı Misir Mədəniyyət Mərkəzi də özünəməxsus rol oynayır. Belə ki, Mədəniyyət Mərkəzi, ilk növbədə öz qapılarını bütün Azərbaycan əhalisi üçün açmışdır. Burada Ərəb dili dərslərinin tədris edilməsi, müxtəlif çərçivələrdə tədbirlərin təşkili Azərbaycan xalqını Misir mədəniyyəti ilə daha yaxından tanış etməkdən ibarətdir. Elm və tələbə mübadiləsinin həyata keçirilməsi, ziyalılarımız arasında dialoq və görüşlərin təşkil edilməsinə də Mərkəz tərəfindən yüksək önəm verilir. Onu da vurğulamaq lazımdır ki, münasibətlərimizin mövcud səviyyəsi onun gələcək perspektivlərindən xəbər verir. Mövzunun tədqiqatçısı kimi, qeyd etmək istərdik ki, əlaqələrimizin daha da inkişafı üçün, elm xadimlərinin qarşılıqlı mübadiləsinin reallaşması da öz növbəsində faydalı olar. Bu, yalnız linqvistika sahəsində deyil, eyni zamanda bütövlükdə bir ölkə olaraq qarşılıqlı araşdırmaların həyata keçirilməsini diqqətdə tuta bilər. Misir Ərəb Respublikasının nüfuzlu univesitetlərində, elm mərkəzlərində azərbaycanşünaslıq fakültəsinin açılması, Misirdə azərbaycandilli məktəblərin fəaliyyətinin genişləndirilməsi, qarşılıqlı surətdə alimlərimizin əsərlərinin tərcümə edilməsi və ezamiyyətlərin təşkili, elm və təhsil sahəsinə kapital qoyuluşunun gücləndirilməsi, birgə elmi konfransların təşkili də əhəmiyyətli ola bilər.

Azərbaycan özünün qədim, ənənəvi və müasir siyası prosesləri və institutları ilə, ilk növbədə, qloballaşma kontekstində siyasi inkişafın geniş problemlərinin tədqiqi üçün bir növ özünəməxsus təcrübə meydanıdır. Buna görə də Misir üçün Azərbaycan kimi ölkə ilə əməkdaşlıq qarşılıqlı surətdə yeni perspektivlər üçün açıq yoldu.

## *ƏDƏBIYYAT:*

1.Maududi Əbuəla. İslamiyyətdə həyat tərzi Tərcümə etdi: V. Hüseynov. Bakı-1994, səh.31
2.A. Naxçıvan Siyasi strateqiya secimi. Dirçəliş XXI əsr // №: 82-83, dekabr, yanvar 2004-2005.s. 428

Internet resusları
3. http: defense and-society. Orq /lind/ lind 8 10 06. htk 24/0208
4. http: // kavkaz. memo. ru/newstext/ new slid/ 1196783. html 27/10/2007
5. http:// www. sis qov.eq/En/ Publications/283/648/649/657 htm//13 08/2007
6. http://cc.europa.eu/extemal relations/eqypt/index cu htm 22/12/07
7. http: ruslıb.com/FOMENKAT/imperia 2. txt. Piece 40 11.27/10/2007

8. htt: //www umes.ru/rus/stat/2004/31-07-04.htm
Новое правительство Егита: "старая гвардия" и "молодые рсфсрерматоры" П.Н Мамедзаде

**Я.М. ВЕЛИЕВ, З.Т. МУСТАФАЕВ**

**ЕГИПЕТСКИЕ- АЗЕРБАЙДЖАНСКИЕ ОТНОШЕНИЯ В XXI ВЕКЕ**

Статья посвящается отношениям между Азербайджаном и одной из самых больших арабских стран Египтом.

В работе анализируются политические, экономические и культурные аспекты сотрудничества между двумя странами.

**YAQUB VƏLIYEV, ZAUR MUSTAFAYEV**

**AZERBAIJAN- EGYPTIAN RELATIONS IN XXI CENTURY**

The article is devoted to one of the greatest countries of Arabic world- Egypt and Azerbaijan. In the work the political, economical and cultural relations between two countries are analyzed.

***Rəyçilər: t.e.n. A.Mirabdullayev, t.e.d.İ.X.Zeynalov.***

***BDU Beynəlxalq münasibətlər kafedrasının 03 aprel 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür. (protokol N 10).***